*On ikinci İmamımız*

# Hz. İmam Mehdi (ə)



On ikinci imamımız, Peyğəmbəri- Əkrəmin (s) son canişini İmam Mehdi (ə) 255-ci hicri-qəməri ilinin Şəban ayının 15-də cümə günü, dan yeri sökülən zaman İraqın Samirra şəhərində dünyaya gəlmişdir. Hörmətli atası, on birinci imamımız Həzrət Həsən Əskəri (ə), anası isə Nərgis xatundur və onun kimliyi haqda müxtəlif rəvayətlər nəql edilmişdir. Bir rəvayətə görə; o, Rum imperatorunun oğlu Yəşuanın qızıdır. Onun da anası Həzrət İsanın (ə) vəsisi Şəmunun nəslindəndir. Rəvayətlərə görə, qəribə bir yuxu nəticəsində müsəlman olmuşdur. Müsəlmanlara qarşı döyüşə keçən Rum ordusuna qoşulur və nəhayət, dostları ilə birlikdə müsəlmanlara əsir düşür. İmam Hadi (ə) bir nəfəri göndərir ki, onu alıb Samarraya gətirsin. Bununla bağlı müxtəlif rəvayətlər nəql olunsa da, diqqəti cəlb edən ən önəmli məsələ Nərgis xatunun imam Hadinin (ə) bacısı Həkimənin evində qalıb, ondan dini təlim-tərbiyə alması və Həkimə xanımın ona böyük hörmət bəsləməsidir.

## İMAM MEHDİNİN (Ə) ADI, KÜNYƏSİ VƏ LƏQƏBLƏRİ

İmam Zamanın (ə) adı və künyəsi İslam Peyğəmbərinin (ə) adı və künyəsi ilə eynidir. Bəzi rəvayətlərdə onun zühuruna qədər adının çəkilməsi qadağan edilmişdir. O həzrətin məşhur ləqəbləri bunlardır: Mehdi, Qaim, Müntəzər, Bəqiyyətullah, Höccət, Xələfüs-Saleh, Mənsur, Sahibül-Əmr, Sahibəz-Zaman, Vəliyyi-Əsr. Bu ləqəblərin içində ən məşhuru Mehdi dir və hər biri Həzrətə xas xüsusiyyətə işarədir.

## İMAM MEHDİNİN (Ə) XÜSUSİYYƏTLƏRİ

Məsumların (ə) hədislərində imam Mehdinin (ə) xüsusiyyətləri haqda belə buyurulur: O, ibadət əhli, gecə ibadətlə məşğul, zahid, sadə yaşayan, səbirli, helmli, ədalətli və yaxşılığı sevəndir. O, elmdə hər kəsdən üstün, mübarək bədəni təmizlik və bərəkət qaynağı, qiyam və cihad əhlidir. Böyük dünya inqilabının rəhbəri, son xilaskarı və bəşəriyyətə vəd edilən islahatçıdır. O, çox nurani, Rəsulullahın (s) nəslindən, həzrət Fatimənin (ə) övladlarından və imam Hüseynin (ə) nəslindən olan doqquzuncu övladıdır. Zühur zamanı Kəbəyə söykənəcək və Peyğəmbərin (s) bayrağını əlinə alacaq. Qiyamı ilə dünyanın hər tərəfində Allahın dinini dirçəldəcək, hökmlərini dünyanın hər yerində icra edəcək və dünya zülmlə dolduqdan sonra haqq-ədalətlə dolduracaqdır.

## İMAM MEHDİNİN (Ə) HƏYAT MƏRHƏLƏLƏRİ

İmam Mehdinin (ə) həyatı üç dövrdən ibarətdir:

**1. Gizli həyat dövrü:** Həzrətin gizli həyat dövrü təvəllüdündən atası imam Həsən Əskərinin (ə) şəhadətinə (beş yaşına) qədər müddəti əhatə edir.

**2. Qeyb dövrü:** İmam Həsən Əskərinin (ə) şəhadətindən başlayıb, imam



Mehdinin (ə) Allahın icazəsi ilə zühur edəcəyi dövrə qədər müddəti əhatə edir. Əlbəttə, qeyb dövrü iki hissəyə bölünür:

**a) Kiçik (qısamüddətli) qeyb dövrü:** 260-cı hicri ilində imam Həsən Əskərinin (ə) şəhadətə çatması ilə imam Mehdinin (ə) imamlıq dövrü və bu tarixdən etibarən, o həzrətin kiçik qeyb dövrü də başladı. Kiçik qeyb dövrü 329-cu hicri ilinə qədər, təxminən, 70 il davam etdi.

**b) Böyük (uzunmüddətli) qeyb dövrü:** Bu dövr 329-cu hicri ilindən başlanmışdır və Allahın əmri və iradəsi ilə qeyb buludlarının çəkilib dünyanın vilayət günəşi ilə işıqlanacağı günə qədər davam edəcək.

Qeyd etmək lazımdır ki, ardıcılları kiçik qeyb dövründə xüsusi nümayəndələr vasitəsilə İmamla (ə) əlaqə saxlayır, ilahi vəzifələrini öyrənib, həyatlarını da İmamın (ə) göstərişləri istiqamətində tənzim edirdilər. Ancaq böyük qeyb dövrünün başlanması ilə bu əlaqə kəsilir. Bundan sonra möminlər dini vəzifələrini əldə etmək üçün İmamın (ə) ümumi nümayəndələrinə üz tutmalı olurlar. Bu nümayəndələr təqvalı və imanlı din alimləri, böyük mərcəi-təqlidlərdən ibarətdirlər.

**3. Zühur dövrü (əsri):** Qeyb dövrü bitdiyi zaman on ikinci İmam (ə) Allahın icazəsi ilə zühur edəcək və dünyanı yaxşılıq, gözəllik, qardaşlıq, dostluq və ədalətlə dolduracaqdır. Heç kim vəd edilən imamın (ə) nə vaxt zühur edəcəyini bilməz. Rəvayətlərdə onun zühur zamanını təyin edənlərin və zühur vaxtını bilirəm deyənlərin yalançı olduqları nəql edilmişdir.

İlahi! Bizim gözlərimizi o həzrətin mübarək camalı ilə işıqlandır! Bizi onun vəfalı dostları və fədakar əsgərlərindən qərar ver! Amin!

## İMAM ZAMANIN (Ə) QEYBƏ ÇƏKİLMƏSİNİN FƏLSƏFƏSİ

İmam Zaman (ə) nə üçün qeybə çəkilmişdir və qeybdə olan imamın ümmətə xeyri nədir? sualını belə cavablandırmaq olar:

Əvvəla, Allah-Taala Qurani-Kərimdə övliyaları iki dəstəyə bölüb:

1. Qeybə çəkilib gözlərdən gizli olan, belə ki, hətta zamanəsinin peyğəmbəri belə onu tanımır. Bununla bağlı Kəhf surəsinin 65-82-ci ayələrində həzrət Musa peyğəmbərin (ə) səfər yoldaşı barədə buyurulur: (Musa və Yuşa orada) Öz dərgahımızdan mərhəmət əta etdiymiz və Öz tərəfimizdən elm öyrətdiyimiz bəndələrimizdən birini (Xızrı) tapdılar. Musa ondan soruşdu: Öyrədildiyin doğru yolu göstərən elmdən mənə öyrətmək şərtilə sənə tabe olummu?

2. Hazır olan, gözlər önündə yaşayıb tanınan və hamıya məlum olan. Buna Nuh, Saleh, İbrahim və s. peyğəmbər və övliyaları misal göstərmək olar. Odur ki, imam Zamanın (ə) qeybdə olması övliyalar



tarixində baş vermiş yenilik deyil. Ondan əvvəlki ilahi şəxsiyyətlərin həyatında da bu kimi hadisələr baş verib. Qurani-Kərimdə adını çəkdiyimiz həzrət Xızırdan (ə) əlavə, həzrət Musanın (ə) barəsində də buyurulur ki, o həzrət 40 gün öz camaatından ayrılıb, qeybdə və gözlərdən uzaqda yaşadı: Musa ilə otuz gecə barədə vədələşdik, sonra ona daha bir on gün də əlavə etdik. Beləliklə, Rəbbinin təyin etdiyi müddət tam qırx gecə (gün) oldu. Musa qardaşı Haruna dedi: Sən camaatımın arasında mənim xəlifəm, canişinim ol, (camaatı) islah etməyə çalış və (yer üzündə) fitnə-fəsad törədənlərin yolu ilə getmə!

Həmçinin Ənbiya surəsinin 87-88-ci ayələrində Yunis peyğəmbərin (ə) camaatdan ayrılıb qeybdə yaşaması haqda belə oxuyuruq: Balıq sahibi Yunisi də xatırla! Bir zaman o (küfr etməkdə həddi aşmış ümmətinə qarşı) qəzəblənərək çıxıb getmiş və onu möhnətə düçar etməyəcəyimizi güman etmişdi. Amma sonra qaranlıqlar içində (balığın qarnından, dənizin zülmətində): (Pərvərdigara!) səndən başqa heç bir tanrı yoxdur. Sən paksan, müqəddəssən! Mən isə, həqiqətən zalımlardan ol-muşam deyib dua etmişdi. Biz onun duasını qəbul etdik və (balığın qarnından çıxartmaqla) onu qəmdən qurtardıq. Biz möminlərə belə nicat veririk.

Odur ki, həzrət Musa (ə) və həzrət Yunis (ə) peyğəmbər olduqları bir halda, müəyyən müddətədək öz camaatından uzaqlaşaraq qeybdə yaşamalı oldular. İmam Zamanın (ə) qeybdə olmasının səbəbinə gəldikdə isə, öncə bunu deməliyik ki, aləmdə baş vermiş bir çox hadisələrin səbəbindən agah olmamağımız və ya onları dərk edə bilməməyimiz üçün onları inkar deyil, əksinə dərketmə qabiliyyətimizin məhdud olduğunu etiraf etməliyik. İmam Zamanın (ə) qeybə çəkilməsi ilə əlaqədar nəql olan rəvayətlərə diqqətlə yanaşan hər kəsə o həzrətin qeybdə olmasının səbəbi məlumdur. Peyğəmbərin (s) Əhli-beyt (ə) barədə buyruqları və tövsiyələrinə məhəl qoymayan İslam hakimiyyətini ələ keçirmiş zəmanənin xəlifələri məsum imamları biri-digərinin ardınca qətlə yetirmişlər. Əgər imam Zaman (ə) da zühur etsəydi, şübhəsiz, öz əcdadının sərgüzəştinə məruz qalacaqdı. Lakin bu cinayətin qarşısını alıb, bütün ümmətlərə vəd etdiyini (müstəzəflərin yer üzünün varisi olacağı, yer üzündə haqq-ədalətin bərpa olacağını) həyata keçirmək üçün Allahın hikməti bunu tələb edir ki, bəşəriyyət belə kamil insanın öz arasında qəbul edə biləcək istedadına yiyələnməyənədək onu gözlərdən gizli saxlasın. İmam Zamanın (ə) pərdə arxasında olmasına səbəb hakimlərin zülmü və camaatın belə bir şəxsiyyəti qəbul etməyə hazır olmadıqlarıdır. Aşağıdakı



"Cəmkəran" məscidi
Hz. Mehdi (ə) məscidi

hədislərə diqqət yetirək:

Zürarə deyir: İmam Mühəmməd Baqirin (ə) belə buyurduğunu eşitdim: Qaim (ə) zühur etməzdən əvvəl qeybə çəkiləcək. Səbəbi nədir? soruşduqda, Həzrət Qorxudan! deyə cavab verib, əli ilə öz qarnına işarə etdi. Zürarə deyir: Həzrət qətli nəzərdə tuturdu.

Abdullah ibn Fəzl imam Sadiqdən (ə) belə nəql edir: ...Bu iş Allahın işləri və Allahın sirlərindəndir... Hər zaman Allahın hikmət sahibi olduğunu bilsək, səbəbi bizə məlum olmasa belə, Onun bütün işlərinin hikmət üzündən olduğunu təsdiqləyəcəyik.

İmam Zamanın (ə) qeybdə olmasının faydasına gəlincə isə, bununla bağlı bir neçə mətləbi oxucuların nəzərinə çatdırırıq:

1. Qeyb müddətində imam Zamanın (ə) faydasından agah olmamaq faydanın olmamasına dəlalət etməz. Bu, əslində, bir həqiqətdən agah olmamağı həmin həqiqətin olmaması kimi qələmə verməkdir. Bu da savadsızlıq və yaxud kəmsavadlığın nəticəsindəndir.

2. Qeybə çəkilməyin tələbi vücudunun istifadəsiz olması deyil. Mümkündür, bir şəxs gözlərdən uzaq olduğu halda, onun vücudu faydalı və səmərəli olsun. Həzrət Musanın (ə) səfər yoldaşı gözlərdən uzaq idi, amma kasıbların qayıqlarını dələrək zalım hakimin əlinə düşməkdən xilas etdi. Həmçinin iki yetimin xəzinəsini qoruyub-saxlamaq üçün köhnə divarı söküb yenidən tikdi. Odur ki, imam Zamanın (ə) da qeybdə olduğu müddətdə belə müdaxilələr etməsi mümkün bir haldır. Bəzi rəvayətlərdə nəql olunur ki, o həzrət hər il həcc mövsümündə iştirak edir və Allah-Taala onun mübarək əli ilə insanların hacətlərini rəva edir.

3. İmam Zamanın (ə) ümumcamaatın gözündən qaib olması şübhəsiz olsa da, ümmətin ən saleh insanlarının gözündən qaib deyil. Rəvayətlərdə də bu məsələ öz əksini tapmışdır.

4. İmam Zamana (ə) camaatın gündəlik işlərinə birbaşa müdaxiləsi vacib deyil. Bu işlər üçün kiçik qeyb dövründə dörd nəfər nümayəndəsi olub: 1. Şeyx Əbu Əmr Osman ibn Səid əl-Əmuri; 2. Onun oğlu Şeyx Əbu Cəfər Məhəmməd ibn Osman; 3. Şeyx Əbülqasim Hüseyn ibn Ruh Nobəxti; 4. Şeyx Əbülhəsən Əli ibn Məhəmməd Səmuri.

Böyük qeyb dövründə isə günün ədalətli alimləri, fəqihləri, yəni İslam dininin bütün hökmlərindən tam agah olanlar o həzrətin naibidirlər. Həzrət öz mübarək dəst-xəttilə yazdığı rəvayətdə buyurur:

Gələcəkdə baş verəcək hadisələr zamanı (ilahi vəzifələri əldə etmək üçün) bizim hədislərimizi nəql edənlərə (fəqihlərə) müraciət edin. Çünki onlar mənim sizlərə höccətim, mən də onların üzərində Allahın höccətiyəm... Bu hədisin sonunda Həzrət qeybdə olduğu müddətdə insanlara verə biləcəyi fayda ilə bağlı sualı belə cavablandırır:

**“İnsanlar bulud arxasında olan günəşdən istifadə etdikləri kimi, məndən də istifadə edirlər.”**

İmamın (ə) qeybinin buludlar arxasındakı gizli günəşə bənzədilməsində bir çox gizli nöqtələr yatır. Bu nöqtələrdən bir neçəsini diqqətinizə çatdırırıq:

Günəş öz sisteminin mərkəzidir. Digər planetlər və kürələr onun ətrafında fırlanır. İmam Zaman (ə) da günəş kimi varlıq aləminin mərkəzi sayılır. Ədilə duasında deyilir:

Dünya onun vasitəsilə durur, onun varlığı sayəsində aləmə ruzi verilir, yer və səma həyatına davam edir.

Günəş bir an belə işığını əsirgəmir. Hər kəs günəşlə əlaqəsi qədər ondan faydalanır. İmam Zaman (ə) da Allah tərəfindən maddi və mənəvi nemətlərin insanlara çatdırılmasında vasitədir. Lakin hər kəs kamallar qaynağı olan İmam Mehdi (ə) ilə əlaqəsi qədərincə ondan faydalana bilir.

Əgər buludlar arxasında günəş olmazsa, şiddətli soyuq və qaranlıq bütün dünyanı örtər və həyatı qeyri-mümkün hala çevirər. Eyni zamanda, əgər aləm imamın varlığından məhrum olarsa (qeyb pərdəsi arxasında olsa da), çətinliklər, çirkinliklər və müxtəlif bəlalar həyatı mümkünsüz edər.

İmam Mehdi (ə) Şeyx Müfidə yazdığı məktubunda ardıcıllarına xitabən buyurmuşdur: Biz, heç bir zaman sizi özbaşınıza buraxmarıq və unutmarıq. Əgər bizim lütfü-nəzərimiz olmasaydı, sözsüz, bir çox bəla və çətinliklə qarşılaşar və düşmənlər sizi məhv edərdilər.

Demək, İmamın günəş kimi vücudu aləmə işıq saçır və feyzini çatdırır.

*Gürcüstan Müsəlmanları İdarəsi*

# İMAM MEHDİ (Ə) HƏDİS İŞIĞINDA

***İslam Peyğəmbəri (s) buyurur:*** *"Axır zamanda mənim ümmətim hökmranlar tərəfindən ağır bəlalara məruz qalacaq. Belə ki, ondan ağır və şiddətlisi eşidilməmişdir! Hətta yer üzü bu qədər genişliyi ilə belə, onlara dar olacaq, zülm və haqsızlıq hər yeri tutacaq. Mömin bir kəs zülmdən pənah aparmağa yer üzündə bir yer tapmayacaqdır. Bu zaman Allah-Taala mənim sülaləmdən olan bir nəfəri göndərəcək ki, yer üzünü zülm və haqsızlıqla dolduğu kimi, haqq-ədalətlə doldursun. Göy və yerin sakinləri ondan razı olarlar, yer üzü özünün bütün toxumlarını cücərdər, səma bütün yağışını onun üzərinə tökər (və hər yeri xeyir-bərəkət bürüyər)!"*

***İmam Əli (ə) buyurur:*** *"Zühuru (Ali-Muhəmmədin (s) zühurunu) gözləyin və Allahın rəhmətindən ümidinizi üzməyin. Heç şübhəsiz, Allah dərgahında ən üstün əməllərdən biri də onun zühurunun intizarında olmaqdır."*

***İmam Hüseyn (ə) buyurur:*** *"...Allah onun əli ilə ölmüş yer üzünü yenidən dirildib canlandıracaq, sonra müşriklərin xoşuna gəlməsə də, haqq dini digər dinlərə qalib edəcək. Onun üçün bir qeyb dövrü olacaq ki, bəziləri dindən dönəcək, bəziləri isə sabit qalacaqlar. Bilin ki, qeyb dövründə təkzib və əziyyətlərə səbir edənlərin mükafatı Rəsulullahın (s) yanında qılıncla cihad edən mücahidlər kimidir."*

***İmam Səccad (ə) buyurur:*** *"Kim, Qaimimizin (ə) qeyb dövründə bizə məhəbbətdə sabit və sadiq qalsa, Allah ona "Bədr" və "Ühüd" müharibələrində şəhadətə yetən min şəhidin savabını verər."*

***İmam Baqir (ə) buyurur:*** *"Bir zaman gələr ki, İmam qeybə çəkilər. O zaman "əmr"imizdə (vilayətdə) sabit qalan kəslərin xoş halına!..."* .